# THE ROLE OF HEALTHY EDUCATION TECHNOLOGIES IN THE SOCIALIZATION OF STUDENTS

**Nigar Shahhuseynbeyova**
Teacher of Azerbaijan University,
Doctoral student of the Institute of
Philosophy and Sociology of the
Azerbaijan National Academy of Science
E-mail: nigar.shah@mail.ru
https://orcid.org/0000-0002-0712-452X

**Abstract.** The article is devoted to the issues of creating technologies that help protect the physical, mental, and spiritual health of students in the educational process in Azerbaijan and influence socialization. The importance of the issue is substantiated in this regard and provides a detailed description of the experience of protecting the health of students, improving their creative abilities, as well as the application of technologies that create conditions for successful socialization. Cognitive processes are said to develop about the formation of independence, interest, activity, and initiative. The article presents the results of comparative monitoring showing the effectiveness of the use of healthy educational technologies that protect the health of students.
**Keywords:** health technologies, healthy education, school, personality development, socialization, interpersonal relationships, physical activity.

**DOI:** http://dx.doi.org/10.29228/imcra.24
**To cite this article:** Shahhuseynbeyova N. (2022). The role of health education tecnologies in the socialization of students. *Journal of Preschool and Primary Education*, Special issue – 1 (2022). pp. 10-19.
**Article history:** received – 23.12.2021; accepted – 09.01.2022

# TƏHSİLALANLARIN SOSİALLAŞMASINDA SAĞLAM TƏHSİL TEXNOLOGİYALARININ ROLU

**Nigar Şahhüseynbəyova**
Azərbaycan Universitetinin müəllimi,
AMEA-nın Fəlsəfə və Sosiologiya
İnstitutunun dissertantı
E-mail: nigar.shah@mail.ru
https://orcid.org/0000-0002-0712-452X

**Annotasiya.** Məqalə Azərbaycanda təhsilalanların tədris prosesində fiziki, psixi və mənəvi sağlamlıqlarının qorunmasına kömək edən, onların sosiallaşmasına təsir göstərən texnologiyaların yaradılması problemlərinə həsr edilmişdir. Problemin aktuallığı bu baxımdan əsaslandırılır və təhsilalanların sağlamlığını qorumaq, onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməklə yanaşı, uğurlu sosiallaşmalarına şərait yaradan texnologiyaların tətbiqi ilə bağlı təcrübənin ətraflı təsviri verilir. İdrak proseslərinin müstəqillik, maraq, fəallıq və təşəbbüskarlığın formalaşması ilə bağlı inkişaf etdirildiyi bildirilir. Məqalədə şagirdlərin səhhətini qoruyan sağlam təhsil texnologiyalarının tətbiq edilməsinin səmərəliliyini göstərən və müqayisə xarakterli monitorinqlərin nəticələri təqdim olunur.
**Açar sözlər:** sağlamlığı qoruyan texnologiyalar, sağlam təhsil, məktəb, şəxsiyyətin formalaşması, sosiallaşma, insanlararası münasibətlər, hərəki fəallıq.

**DOI:** http://dx.doi.org/10.29228/imcra.24
**Məqaləyə istinad:** Şahhüseynbəyova N. (2022). Təhsilalanların sosiallaşmasında sağlam təhsil texnologiyalarının rolu. *«Məktəbəqədər və ibtidai təhsil»*, Xüsusi buraxılış – 1 (2022). səh. 10-19.
**Məqalə tarixçəsi:** göndərilib – 23.12.2021; qəbul edilib – 09.01.2022.

## *Giriş / Introduction*

Azərbaycan təhsili bu gün iri miqyaslı dəyişikliklər mərhələsindədir. Bu dəyişikliklər şəxsiyyətin sosial və fərdi inkişaf prosesinə, yeni baxışa əsaslanır. Təhsildə prioritet məsələ insanda müstəqillik, məsuliyyət, təşəbbüskarlıq və yaradıcılıq kimi cəhətlərin tərbiyə olunmasının təşkilidir. Bu da sosiallaşma prosesinə yeni yanaşmanın praktik təcəssümünü tələb edir.

"Şəxsiyyətin sosiallaşması fərdin cəmiyyətə, müxtəlif tipli sosial birliklərə inteqrasiyası prosesidir" [Vahidov F. Q., Ağayev T. B., 2013]. Sosiallaşma prosesinin vasitəsi ilə şagird cəmiyyətdə qəbul edilən sosial normaları mənimsəyir, mənəvi dəyərlərə yiyələnir. Bu mənimsəmənin kökündə sosial keyfiyyətlərin, xüsusiyyətlərin, səriştə və bacarıqların formalaşması baş verir. Bunların sayəsində uşaq sosial qarşılıqlı əlaqə və qarşılıqlı təsirin səlahiyyətli iştirakçısına çevrilir. "Belə ki, sosiallaşma – sosial "mən"in inkişaf prosesidir" [Smelzer N., 1994].

## *Əsas hissə / Main part*

Sosiallaşma probleminin mahiyyəti və strukturu E.Dürkgeym, M.Mid, T.Parsons, E.Qiddens, N. Smelzer, J.Piaje, E.Erikson, A.Mudrik və b. tərəfindən araşdırılmışdır. Şəxsiyyətin sosial təcrübəyə yiyələnməsi prosesi haqqında R.Litvak, T.Ptaşko, E.Kamaldinova və başqa alimlər öz əsərlərində yazmışlar. Hər bir fərdin sosial fəaliyyətə cəlb olunması ideyalarına, şəxsiyyətin fəallığı problemlərinə Ç.Kuli, C.Mid, M.Rojkov və digər alimlərin yazılarında rast gəlinir.

Kiçik yaşlı məktəblilərin cəmiyyətdə qəbul olunan əxlaq normalarına, mənəvi dəyərlərə yiyələnmələrinə istiqamətlənməsində kommunikativ bacarıqların rolu haqqında fikirlərə N.Kasatkina və N. Klyuyevanın elmi tədqiqatlarında rast gəlmək olar.

Sosiallaşma məqsədi ilə təhsil sisteminin fərdlərə məqsədyönlü təsiri və cəmiyyətin ehtiyaclarına uyğunlaşmaq kimi fikirlərə E.Dürkgeym, K.Popperin əsərlərində rast gəlirik.

Təhsil sistemində mütəmadi islahatların aparılması, təhsilin təşkilinin yenidən qurulması bu sahədə yeni tələbləri ödəyə biləcək, alternativ sistemin yaradılmasına və onun tətbiqinə gətirib çıxarır. Bununla yanaşı, aydın məsələdir ki, aparılan islahatlarda təhsildə ən vacib element olan şəxsiyyətin harmonik inkişafının ayrı-ayrı aspektləri və pedaqoji fəaliyyətin təşkili, eləcə də onun sosial-psixoloji elementləri nəzərə alınmasa, istənilən nəticəni verə bilməz. "Təhsil və onunla bağlı olan proseslər cəmiyyətdə gedən digər proseslərlə sıx əlaqədə-

dir. İqtisadiyyatda, texnologiyada, elmi-texniki mühitdə baş verən dəyişikliklər ciddi şəkildə cəmiyyətin hər bir sahəsinə nüfuz edir. Cəmiyyətlə yanaşı, təhsildə də yeni tələbatlar, dəyərlər, maraqlar yaranır" [Mudrik A.V., 2005].

Baş verən bu dəyişikliklərin dərinliyi, fundamentallığı Azərbaycanın təhsil sistemində də ciddi yeniləşmələrin, modern islahatların aparılmasını tələb edir. Qloballaşma şəraitində şəxsiyyətin mənəviyyatının qorunması, milli dəyərlərin, adət-ənənələrin, tərbiyənin əsas amili olaraq, daha da möhkəmləndirilməsi vacibdir. Bəs nə etməli? Təhsil sistemində modernləşdirmə hansı istiqamətdə aparılmalıdır ki, bütün bu dəyişmələrə hazır olan şəxsiyyət formalaşsın? İnsan texniki modernləşdirmənin tələb olunduğu, eyni zamanda insanın sağlamlığını pozmağa qadir olan nəhəng intellekt yükünün ağırlığına dözərək, lazım olan səviyyədə koqnitiv fəallıq göstərsinmi? Lazımsız informasiya axını, stresslə yüklənmə, xəstəliklər, ekologiyanın pozulması, zərərli kulturoloji elementlərin yaranması kimi problemlərin öhdəsindən necə gəlsin?

Bu problemlərin səmərəli həlli yolları ölkəmizdə təhsilin günün tələbləri səviyyəsində qurulmasının təmin olunması məqsədi ilə kompleks tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təsdiqini tapıb [Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2013]. Bütün bunları əldə rəhbər tutaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 2014-cü ildən etibarən] "Sağlam Təhsil – Sağlam Millət" layihəsinin həyata keçirilməsinə başlandı.

2014/2015-ci tədris ilindən başlayaraq tədqiqat apardığımız məktəblərdə layihə çərçivəsində sağlam təhsil sinifləri (STS) yaradılmışdır. STS-də təlim-tərbiyə prosesini ənənəvi təlim prosesindən fərqləndirən bir sıra yeniliklər həyata keçirilir. Gigiyenik normalara və AR Nazirlər Kabinetinin 2010-cu il, 171 saylı əmrinə müvafiq olaraq, sinifdə şagird sayı maksimum 24 nəfər olmaqla, hər şagirdə 2–2,5 $m^2$ sahə nəzərdə tutulmaqla komplektləşdirilir. "STS-də tədris hərəkətli təlim şəraitində təşkil edilir, sağlam təhsil texnologiyaları tətbiq olunur. Bu texnologiyalardan istifadədə məqsəd təhsilalanların fiziki, psixi və mənəvi sağlamlığının qorunması, uğurlu sosiallaşma və yüksək təlim nailiyyətlərini əldə etməkdən ibarətdir" [Smirnov N.K., 2002].

Sağlam təhsil sinifləri şagirdlərin boy ölçülərinə müvafiq olaraq, ayaqüstə iş və oturaq iş üçün masalarla təchiz edilmişdir. Masaların işçi səthi $16^0$ maillikdədir. Masaların hündürlüyü şagirdlərin boylarına müvafiq tənzimlənir. Şagirdlər hər 15 dəqiqədən bir yerlərini dəyişməklə oturaq iş vəziyyətindən ayaqüstə işə və əksinə keçirlər. Sinfin tavanına görmə funksiyasını və vestibulyar aparatı məşq etdirmək üçün prof. V.Bazarnının xüsusi "Universal Simvollar Sxemləri" (USS) və "Görmə-vestibulyar məşqçi" (ZEVS) avtomatlaşdırılmış sistemi

quraşdırılmışdır. Dərsin 15-ci dəqiqəsində ZEVS, 30-cu dəqiqəsində isə USS vasitəsi ilə hərəkətlər həyata keçirilir [Bazarnıy V.F., 2019].

Sağlam təhsil texnologiyalarının tətbiqinin səmərəliliyinin artırılması məqsədilə AR Təhsil Nazirliyinin sifarişi əsasında Təhsil Texnologiyaları Mərkəzinin mütəxəssisləri tərəfindən monitorinqlər keçirilmişdir.

Sağlam Təhsil – Sağlam Millət layihəsi çərçivəsində həyata keçirilən monitorinqlərdə 2015/2016-cı tədris ilində tibbi, psixoloji, pedaqoji monitorinqlərlə yanaşı, sosioloji tədqiqatlar da həyata keçirilmişdir.

Hər bir kollektivdə onun üzvləri arasında müxtəlif münasibətlər yaranır. “Kiçik qruplarda aparılan tərbiyə prosesinin tədqiqi göstərir ki, insanlarda xasiyyət, davranış oxşarlığının mənbəyini anadangəlmə psixofizioloji xüsusiyyətlərdə deyil, insana olduqca böyük formalaşdırıcı təsir göstərən qrupların strukturunda axtarmaq lazımdır: ailədə, yaşıdlar qrupunda, qonşular qrupunda və s.” [Elkonin D.B., 2004]. Məktəbdə isə sinifdəki şagirdlər arasında olan münasibətlərdə bu, açıq-aydın görünür. Bu məqsədlə şagirdlərin məktəbə, sinfə, kollektivə uyğunlaşmaları, öz yaşıdları ilə ünsiyyət qurmaları, sağlam rəqabət aparmaları, onların motivasiyalarının öyrənilməsi üçün sosioloji tədqiqatların aparılması məqsədəuyğundur.

Sağlam təhsil və ənənəvi təhsil siniflərinin şagirdləri arasında göstərilən amillərin müqayisəli öyrənilməsi üçün tədris ilinin əvvəlində və sonunda monitorinqlərin aparılması, alınan nəticələrin təhlil olunması nəzərdə tutulmuşdur.

**Tədqiqatın məqsədləri:**

1. sağlam təhsil texnologiyalarının şagirdlərin sosial uyğunlaşma prosesinə və ünsiyyət bacarıqlarına təsirini öyrənmək;

2. sağlam təhsil və ənənəvi siniflərin şagirdləri arasında sosial uyğunlaşma, ünsiyyət bacarıqları baxımından fərqliliyi aşkar etmək;

3. təhsilalanlar üçün nəzərdə tutulan qənaətbəxş sosial mühiti müəyyən etmək.

**Tədqiqat obyekti:** Bakı şəhəri, 23 və 26 nömrəli tam orta məktəblərin Azərbaycan və rus bölmələrində sağlam təhsil və ənənəvi təhsilin I və II sinif şagirdləri (cəmi 500 şagird).

Məlumatların toplanması mərhələləri:

1.Hazırlıq mərhələsi. Bu mərhələdə şagirdlər haqqında dolğun məlumat toplamaq məqsədi ilə hazırlıq işləri aparılır:

– sənədlərin öyrənilməsi (şəxsi sənədlər, sinif jurnalları və s.);

– müəllimlərlə söhbətlərin aparılması (uşaqların xasiyyətnamələri, onların sosial vəziyyətlərinin öyrənilməsi, valideynlərlə işin aparılmasına dair, məktəb və məktəbdənkənar tədbirlər, şagirdlərdə sosiallaşmanın hansı yollarla həyata keçirildiyi barədə məlumat toplamaq).

2. Əsas mərhələdə aşağıdakı işlər həyata keçirilir:

– Sorğu anketi tərtib olunur (yalnız II siniflər üçün). Bunun üçün Luskanovanın tərtib etdiyi "Məktəb motivasiyasının qiymətləndirilməsi" anketindən istifadə edilir. Sorğu anketi 10 sualdan ibarətdir. "Beş kateqoriya üzrə şagirdlərin məktəbə olan marağının, sosial adaptasiyasının müəyyənləşdirilməsi, uşaqların şagird – müəllim, şagird – şagird münasibətlərini qurmaq məqsədi ilə sosial bacarıqlara yiyələnmələri, müəllimə və sinif yoldaşlarına münasibətlərini öyrənmək üçün bir vasitə kimi istifadə edilir" [Şeqlova S. N., 1999].

– Tədqiqatçı şagirdlərin davranışını və şagirdlərarası münasibətləri müşahidə etmək məqsədi ilə (I və II siniflərdə) dərslərdə və dərsdənkənar tədbirlərdə (real həyatda, təbii şəraitdə) iştirak edir.

– Müşahidə aparılır (I və II siniflərdə).

– Rene Jil üsulunun şəkillər hissəsi ilə sosiometriya aparılır. "Bu proyektiv metodika əsasında tərtib olunan tapşırıqlar vasitəsilə şagirdlərin fərdlərarası münasibətləri haqqında dolğun məlumat əldə edilir, onların cəmiyyətə uyğunlaşma prosesində nə kimi dəyişikliklərin baş verməsi müəyyən edilir, münasibət qurmaq istək və bacarıqları ilə bağlı vəziyyət öyrənilir" [Şeqlova S.N., 2000]. Tapşırıqlar həm kollektiv, həm də fərdi iş xarakteri daşıyır.

*Diaqram 1*

**İbtidai sinif şagirdlərində sosiallaşma prosesinin tədqiqat nəticələri (oktyabr, 2015)**



*Cədvəl 1*

| Motivasiya | Ənənəvi təhsil, oğlanlar % | Ənənəvi təhsil, qızlar % | STS, oğlanlar % | STS, qızlar % | Fərq: STS və ənənəvi təhsil sinifləri (oğlanlar) (oktyabr) | Fərq: STS və ənənəvi təhsil sinifləri (qızlar) (oktyabr) |
|---|---|---|---|---|---|---|
| aşağı | | 2.1 | | | | -2.1 |
| orta | 41.9 | 13.6 | 16 | 11.1 | -25.9 | -2.4 |
| yüksək | 58.1 | 84.3 | 84 | 88.9 | 25.9 | 3.8 |

Aparılan monitorinqlər göstərdi ki, sağlam təhsil siniflərinin şagirdləri məktəb şəraitinə daha yaxşı uyğunlaşa bilirlər, daha yüksək motivasiyaya malikdirlər. Belə ki, layihə siniflərində təhsil alan oğlanlar və qızların sosial adaptasiyası daha uğurlu keçmişdir. Cədvəldən göründüyü kimi, sağlam təhsil siniflərinin oğlanlarının məktəb motivasiyası ilə ənənəvi sinifdə təhsil alan oğlanların məktəb motivasiyası arasında böyük fərq (25%) yaranmışdır (cədvəl 2).

***Diaqram 2***

**İbtidai sinif şagirdlərində sosiallaşma prosesinin tədqiqat nəticələri (may, 2016)**

**ST və ənənəvi sinifdə oktyabr 2015-ci il tarixində keçirilən monitorinqlərin təhlili (Motivasiya və sosial adaptasiya)**



*Cədvəl 2*

| Motivasiya | Ənənəvi təhsil, oğlanlar % | Ənənəvi təhsil, qızlar % | STS, oğlanlar % | STS, qızlar % | Fərq: STS və ənənəvi təhsil sinifləri (oğlanlar) (oktyabr) | Fərq: STS və ənənəvi təhsil sinifləri (qızlar) (oktyabr) |
|---|---|---|---|---|---|---|
| **aşağı** | 2.9 | 3.6 | 2.0 | 2.2 | -1.0 | -1.4 |
| **orta** | 22.1 | 9.1 | 7.8 | 6.7 | -14.2 | -2.4 |
| **yüksək** | 75.0 | 87.3 | 90.2 | 91.1 | 15.2 | 3.8 |

2016-cı ilin may ayında keçirilən növbəti monitorinqin nəticələrinə əsasən, sağlam təhsil siniflərində təhsil alan oğlanların 90,2 %-də, qızların 91,1 %-də yüksək məktəb motivasiyası qeydə alınmışdır. Ənənəvi siniflərdə bu göstəricilər oğlanlarda 75%, qızlarda isə 87,3% təşkil etmişdi (sxem 2).

***Diaqram 3***

**İbtidai sinif şagirdlərində sosiallaşma prosesinin tədqiqat nəticələrinin müqayisəli təhlili (2015, oktyabr –2016, may):**

**ST və ənənəvi sinifdə oktyabr 2015 və may 2016-ci il tarixində keçirilən monitorinqlərin təhlili (Motivasiya və sosial adaptasiya)**



*Cədvəl 3*

| Səviyyələr | Oktyabr | | May | | Oktyabr | May |
|---|---|---|---|---|---|---|
| | STS | Ənənəvi siniflər | STS | Ənənəvi təhsil | STS və ənənəvi siniflər arasında fərq | |
| **yüksək** | 86.3 | 71.4 | 90.6 | 80.5 | 14.9 | 10.1 |
| **orta** | 12.3 | 28.6 | 7.3 | 16.3 | -16 | -9 |
| **aşağı** | 1.1 | 0 | 2.1 | 3.3 | 1.1 | 1.2 |

## *Nəticə / Conclusion*

Beləliklə, 2015/2016 tədris ilinin oktyabr, may aylarında aparılan tədqiqatın nəticələri sübut edir ki, Sağlam Təhsil – Sağlam Millət layihəsi çərçivəsində yaradılan şərait, gigiyenik normalara müvafiq təşkil edilmiş tədris şəraiti, sinifdə şagird sayının optimallaşdırılması, hərəki fəallıq şagirdlərin əqli proseslərini, emosional vəziyyətlərini, yaradıcılıq potensiallarını müsbət dinamika ilə inkişaf etdirir. Bu inkişaf şagirdlərin məktəbə qarşı olan neqativ münasibətinin azalması, şagird şəxsiyyətinin formalaşdırılması üçün müsbət şərait yaradır. Müqayisəli təhlil STS şagirdlərinin inkişafının ənənəvi təhsil sinifləri şagirdlərinin potensial inkişafından xeyli yüksək səviyyədə olduğunu göstərdi.

Aparılan tədqiqatların nəticələri göstərmişdir ki, "Sağlam Təhsil – Sağlam Millət" layihəsində tətbiq edilən sağlam təhsil texnologiyaları sağlam təhsil siniflərində təhsil alan şagirdlərin sosial uyğunlaşmasına, sağlam düşüncəyə əsaslanan ünsiyyət yaratmaq, sağlam rəqabət aparmaq bacarıqlarının formalaşmasına müsbət təsir göstərir. Sağlam təhsil siniflərinin şagirdləri məktəb həyatına daha tez uyğunlaşır, daha ünsiyyətçil, yüksək motivasiyalı, açıq fikirli olurlar.

**Məqalənin aktuallığı.** Ümumtəhsil müəssisələrində şagirdlərin uğurlu sosiallaşması müasir dövrün aktual mövzularından biridir. Məktəb illərində şagird sosial varlıq olaraq formalaşır, mənəvi dəyərlərə yiyələnir. Bu gün şəxsiyyətin hansı bacarıq və səriştələrə malik olub-olmaması, cəmiyyətə inteqrasiya edib-etməməsi müəyyən dərəcədə məktəbdən asılıdır. Ona görə ümumtəhsil müəssisələrində yaradılan şərait günün tələblərinə cavab verməlidir.

**Məqalənin elmi yeniliyi** ondan ibarətdir ki, burada təhsilalanların hərtərəfli inkişafına, onların yaradıcılıq qabiliyyətlərinə, vacib sosial kompetensiyaların formalaşmasına təsir edən, sağlamlığı qoruyan texnologiyaların, tədrisin elmi əsasları verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, haqqında bəhs olunan texnologiyalar tədris prosesində şagirdlərin fiziki və psixi sağlamlığını qorumaqda uğurlu sosiallaşma prosesinin həyata keçirilməsinə, pedaqogika elminə öz töfhələrini verə və nəticədə, Azərbaycan təhsil sisteminin inkişafına kömək edə bilər.

### *İstifadə olunmuş ədəbiyyat / References*

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (2013). Bakı.
2. Vahidov F.Q., Ağayev T.B. (2013). Sosiologiya. Bakı, "Zərdabi LTD", 352 s.
3. Bazarnıy V.F. (2019). Ditya chelovecheskoe. Moskva, "Kontseptual", 400 s.
4. Mudrik A.V. (2005). Sotsialnaya pedaqoqika. Moskva, "Akademiya", 200 s.
5. Nikitina V.A. (2002). Sotsialnaya pedaqoqika. Moskva, Qumanit. izd. tsentr "VLADOS", 272 s.
6. Smirnov N.K. (2002). Zdorovyesbereqayushie obrazovatelnıe texnoloqii v sovremennoy shkole. Moskva, APK i PRO, 121 s.
7. Smelzer N. (1994). Sotsioloqiya. Moskva, "Feniks", 688 s.
8. Sheqlova S.N. (1999). Detstvo: metodı issledovaniya . Moskva, "Sotsium", 173 s.
9. Sheqlova S.N.(2000). Kak izuchat detstvo? Sotsioloqicheskie metodı issledovaniya sovremennıx detey i sovremennoqo detstva. Moskva, "Yunpress", 58 s.
10. Elkonin D.B. (2004). Detskaya psixoloqiya. Moskva, "Akademiya", 384 s.